BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Humanitar elmlər seriyası* 2013

**47.82.20. Dramaturgiya**
**UOT 82-2**

# AZƏRBAYCAN DRAMATURGİYASININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ (XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİ)

**K.İ.HEYDƏROVA**
***Bakı Dövlət Universiteti***
***konul_qalib@mail.ru***

*Məqalədə dramaturgiyamızın XIX əsrin sonu – XX əsrin əvvəlləri üçün səciyyəvi olan xüsusiyyətləri araşdırılmışdır. Hər bir dramaturqun fəaliyyətinin müəyyən əlamətləri tədqiqata cəlb olunmuşdur. Həmçinin dramaturgiyada toxunulan problemlərə ümumi nəzər salınmışdır. Müxtəlif müəlliflərin dramaturgiyada qaldırdığı məsələlər qruplaşdırılmış, onların özünəməxsusluğu ayrı-ayrılıqda işıqlandırılmışdır.*

**Açar sözlər:** Azərbaycan, dramaturgiya, problem, sənətkarlıq

Hər bir bədii əsər müəyyən poetik gücə, ədəbi dəyərə malikdir. Əsərin dəyəri onun bədii çəkisindən asılıdır. Onun bədii çəkisi isə özündə ehtiva etdiyi milliliklə, bəşəriliklə, milli idealın, milli xarakterin, milli düşüncə tərzinin, milli psixologiyanın koloritiylə, bədii nümunələrdə milli-mənəvi ideallarıın ifadəsi, milli-xəlqi ruhun əqli dərkdə ehtiva olunması ilə ölçülür. Əsəri dəyərləndirmək üçün onun daşıdığı ümumbəşəri ideyaların məcmusu, əsərlərdə dövrün ictimai-siyasi fikirlərinin əks olunması və bunun milli oyanışa təsiri, bədii fikrin başlıca ifadə tərzi kimi seçilməsi, ədibin hansı bədii çalarlarından istifadə etməsi və s. nəzərə alınmalıdır.

Tədqiqata başlamazdan əvvəl hər bir əsərin bədii səciyyəsini, həmin əsərə məxsus unikal xüsusiyyətləri araşdırmaq sağlam araşdırmaya zəmin yaradır. XIX əsrin sonlarında Azərbaycanda özünəməxsus xüsusiyyətlərə malik yeni janrlar meydana çıxdı və bu janrlarda əvəzsiz, möhtəşəm əsərlər yarandı. Azərbaycan da ədəbi-bədii fikir ümmanında ideyalar və səciyyəvi xüsusiyyətləri ilə özünəməxsus yer tutan dramaturgiyanın meydana gəlməsi sanki ədəbi inqilab hadisəsi idi. Dram janrı dövrün ictimai-sosial mənzərəsini bədii reallıqla, xarakterik həyat hadisələrini öz rəngində təcəssüm etdirmək baxımından yaradıcı insanlara geniş arena verdi. Dramaturgiya yarandığı

dövürdən indiyədək ədəbi həyata təsir etməklə yanaşı, bədii fikrin inkişafında da güclü rol oynamışdır.

Məmməd Arif qeyd edir ki, «Dram yazan şəxs əvvəlcə öz əsərinin məfkurəvi qayəsini təyin etməlidir, yəni tamaşaçıya nə demək istədiyini, hansı böyük bir fikri təbliğ etmək istədiyini özünə aydınlaşdırmalıdır; bunsuz heç bir bədii əsər yarana bilmədiyi kimi, dram əsəri də yarana bilməz" (7, 156).

Bizim tədqiqata cəlb etdiyimiz dövrün dramaturqları sanki M.Arifin fikirlərini duyduqları üçün bədii üslubun ictimai çəkisinə layiq, daxili məzmuna malik, bədii təfəkkürün məhsulu olan əsərlər yaratmaqla ədəbiyyat tariximizdə xüsusi mövqe tutmuşlar. Hansı ki, bu əsərlər milli şüurda, milli özünüdərkdə misilsiz rol oynamışlar və hazırda da oynamaqda davam edirlər. Bir növ bu müəlliflər azərbaycançılıq konsepsiyasını, kimliyini yaratmışlar. Pyeslərin əsas qayəsini milli mənlik ideyalarının yaranması, müstəqilliyi labüd edən mühitin formalaşması, milli birlik, azərbaycançılıq və türkçülük ideyalarının aşılanması və həyata keçirilməsi, vətənə məhəbbətin təbliği, milli ənənələrin inkişaf etdirilməsi, nadanlıqla mübarizə, mövhumat və xürafatın ifşası, hüquq bərabərliyinin təbliği, elmdən başqa real qüvvənin olmaması təşkil edir.

Yaşar Rzayevin təbirincə desək "...ilk növbədə onların yaratdıqları bədii nümunələrin sənətkarlıq xüsusiyyətləri, poetikası, bədii təcrübənin davamı və inkişafı, milli gerçəkliyimizin real inikası, milli-mənəvi dəyərlərin ifadəsi, ən başlıcası isə oxucuya təsiri, cəlbetmə və estetik zövq səviyyəsi diqqət mərkəzinə keçir" (10, 8).

"Millət özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: səltənət və hökumət büsatından əl çək!" (2, 21). XIX əsrin 50-ci illərində M.F.Axundzadə tərəfindən deyilmiş bu fikir demək olar ki, ondan sonra yaradıcılıqla məşğul olan bütün ədiblərin yaradıcılıq kredosunu təşkil etmişdir.

Hər bir müəllifin yaradıcılığının özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Ümumilikdə isə onlar hiyləgər, fırıldaqçı, nadan, qabiliyyətsiz , rəhmsiz, qəddar hökmdarları, Allah və peyğəmbər adından istifadə edib min cür fitnələr törədən, despotun zülmünə bəraət qazandıran riyakar ruhaniləri, paxıl, kinli və intiqamçı adamları, zəhmətlə yaşamağın əleyhinə olanları, əfəl saray xadimlərini, yaltaq məmurları, bacarıqsız, ləyaqətsiz, ikiüzlü hakimləri, avam, cahil, kələkbaz, fırıldaqçı, nadan adamları, şərab stolunun ətrafında millət dərdi çəkənləri, hər işi zorda görənləri, məzlumu tapdayanları bədii şəklə salaraq ifşa edirlər.

Dramlarda istibdad üsul-idarəsinin ictimai eybəcərlikləri, əxlaqi naqislik, milli geriliyin səbəbləri, dövrün, zəmanənin insan xarakterində əmələ gətirdiyi ziddiyyətlər, dövlət başçılarının ağılsızlığı açılıb göstərilir, köhnə feodal-patriarxal adətlər, despotizm, zəmanənin ictimai eyibləri, avamlıq, cadugərlik, xüsusilə cəhalət və nadanlıq tənqid edilir.

XIX əsrin XX əsrlə qovuşuğunda yaradılan dram əsərləri bir növ ədəbiyyatımızın bədii hüsnünü müəyyənləşdirir. Həmin dramaturqlar əsərlərində maarifçilik ideyalarını, nəcib, əxlaqlı və mənəviyyatca təmiz olmağın fəzilətini, ağıllılığın, ədalətliliyin, mərdliyin və alicənablığın ali hiss olduğunu təbliğ edir, qadın hüquqsuzluğuna, ictimai bərabərsizliyə, dini mövhumata qarşı çıxırlar. Yaratdıqları bədii nümunələrdə azad, ağıllı, namuslu, vətənpərvər ziyalıların nadanlığa, cəhalətə, xurafata, zülmətə qarşı apardıqları mübarizənin səciyyəvi yollarını göstərirlər.

Bu müəlliflərin yaradıcılıqlarının ümumi xüsusiyyətlərindən başqa hadisələrə özünəməxsus yanaşma tərzi də diqqəti cəlb edir. İndi isə bəzi müəlliflərin yaradıcılığının səciyyəvi xüsusiyyətlərinə nəzər salaq. Belə ki, M.F.Axundzadə əsərlərində öz dövrünün ən tipik insan xarakterlərini, cəmiyyətin təzadlı zümrələrinin koloritli təsvirini təbii boyalarla çox orijinal və incə şəkildə əks etdirə bilmişdir. O yaratdığı obrazları öz dili ilə ifşa edərək onun daxili aləmini göstərməyə çalışır. Məsələn, "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" (1850) komediyasında yazıçı Məstəli şahın həqiqi simasını onun öz köməkçisi Qulaməli ilə söhbətində açır. Qadınları aldadaraq, onlardan çoxlu qızıl alacağına əmin olduqdan sonra Məstəli şah (Şərəfnisə xanıma) deyir: "Xanım, bu sirrdən gərək olar və ya başqa adam nə indi, nə də sonra xəbərdar olmasın ha! Və illah cadu heç əsər bağışlamaz!" ...(Qulaməliyə) "Bacaqlıları alandan sonra əl-ayaq açıb, on günə qədər özümü Arazın o tayına sala bilərəm. Məni orada kim tapacaqdır? Məndən sonra hər nə olacaqsa olsun" (1, 61).

"Beləliklə, Məstəli şah özünün daxili mahiyyəti haqqında tam məlumat vermiş olur. Dramaturq onu bu şəkildə təqdim etməklə o zaman Azərbaycanda çox yayılmış yalançı, fırıldaqçı, hiyləgər dərvişləri ifşa edir" (3, 36).

M.F.Axundzadə “Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərində dövlətçilik ənənəsini, ümumiyyətlə, dövlətçilik problemini bütün cəhətləri ilə ortaya qoyur.

Belə dramaturji yanaşmaya N.Nərimanov ("Nadir şah" 1898), Ə.Haqverdiyev ("Ağa Məhəmməd şah Qacar" 1907) və H.Cavid ("Topal Teymur" 1922) yaradıcılığında da rast gəlinir. Onlar da dövlətçilik haqqında arzularını, istəklərini və mövcud olan problemləri dram əsərləri vasitəsilə çatdırmağa çalışmışlar.

Məişət, əxlaq məsələlərini real həyat kontekstində səhnəyə daşıyaraq yeni bir üslub yaradan dahi dramaturqlardan biri də N.Vəzirovdur. Dram əsərlərində konkret mübariz qəhrəmanlar yaratması onun yaradıcılığının səciyyəvi xüsusiyyətidir. "Vəzirov maarifçi dramın təkcə ideya hüdudlarını yox, həm də həyatı əhatə çərçivəsini genişləndirir, səhnədə ictimai geriliyin tənqidini və realist-maarifçi didaktikanın hüdudlarını böyüdür. Bunlardan birincisində o, mülkədar-ağa, ikincisində ziyalı-bəy surətlərinin nümunəsində nail olur: rədd olunan vərdiş, psixologiya və adətlərdə olan köhnəlik inkar edilir, müsbət-rezoner surətlərin səhnədə birbaşa bəyan etdiyi şikayətlərdə və

monoloq-nəsihətlərdə təbliğ olunan yeniliyin məzmunu izah olunur" (9, 7). Onun dramlarının maarifçi səciyyəsi çox qabarıqdır. N.Vəzirov monoloqlu dram üslubunu qabarıq şəkildə, özü də qlobal problemlərin həlli məcrasında verir. Millətpərəstlik, xalq canıyananlığı, özünü milli ideal carçısı kimi təqdim edənlərin ifşası Ə.Haqverdiyevdə ("Millət dostları", 1905), S.S.Axundovda ("Dibdat bəy", "Türk birliyi", 1906) olduğu kimi N.Vəzirovda da ("Pəhləvani-zəmanə", 1900) güclüdür.

Ə.Haqverdiyev yaradıcılığında daha kəskin koloritdən–ifşaedici üsuldan istifadə etmişdir. Ümumiyyətlə, köhnə zehniyyətlə, istismar və ictimai ədalətsizliklə mübarizə, köhnə ilə yeninin, "ata" ilə "oğul"un çarpışması, Rusiyadakı və Azərbaycanın özündəki qabaqcıl, demokratik fikirlərin təbliği, intibahla əmələ gələn təzə fikirlərin intişarı Ə.Haqverdiyevin yaradıcılığında mühüm yer tutur. O, yüksək zövqlə qələmə aldığı əsərlərində cəmiyyəti düşündürən məsələləri aşkar şəkildə göstərməkdən çəkinmir. "Millət dostları"(1905) əsərində ədib özünü millətin qayğıkeşi, dostu adlandıran bir qrup "ziyalı"nı onların öz sözləri ilə tənqid atəşinə tutur. Onun tənqidi öldürücüdür. Bir qrup bəy Əsgər bəyin evində kef məclisinə toplaşaraq millətin, xalqın problemlərini "həll etməyə" çalışırlar. Onlar şərab içə-içə bir-birini tərifləyirlər. Amma iş görməyə gələndə, vəsait toplamaq lazım olanda mübahisə edərək savaşırlar. Bununla da cəmiyyəti-xeyriyyə yaratmaq yarımçıq qalır.

Müəllif burada yaratdığı zadəgan obrazlarının iç üzünü açmaqla göstərmək istəyir ki, sözdə yox, əməldə "millət dostu", "millət qeydkeşi" olmaq lazımdır. Ə.Haqverdiyevin yaradıcılığının digər səciyyəvi xüsusiyyəti həm də ondan ibarətdir ki, o öz məsləkdaşları ilə bərabər bədii-fəlsəfi düşüncənin formalaşmasına, yeni obrazların yaradılmasına, ailə, əxlaq, tərbiyə, təhsil məsələlərinin önə çəkilməsinə daha geniş yer ayırır.

Fəlsəfi-psixoloji baxımdan çox mürəkkəb yaradıcılıq silsiləsinə malik olan dahi dramaturqlarımızdan biri də Hüseyn Caviddir. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmışdır. Cavid yaradıcılığının özünəxas xüsusiyyətləri yeni janrda tarixin dəyirmanında üyüdülmüş, məhək daşında döyülmüş, amma aktuallığını heç zaman itirməyən mövzular – insan, din, zaman, mənəvi kamillik problemlərinin cavidsayağı qoyuluşundadır. Ümumbəşəri ideyalar daşıyıcısıdır Cavid yaradıcılığı. "...H.Cavid mövzu və qəhrəmanlarını xalqımızın milli-mənəvi dəyərlərinin təsdiqinə yönəltdi, milli ruhu yüksək sənət eşqi ilə oxşadı, mühitin fövqünə ucalmağın, ideala qovuşmağın yol və vasitələrini meydana çıxardı, milliliklə bəşəriliyi, tarixiliklə müasirliyi vəhdətdə vəsf etdi, ideologiya, «zamanın tələbləri» əsasında deyil, məhz ruhi-mənəvi tələb, ümuminsani istək əsasında ədəbiyyat yaratdı... Onun dramaturgiyasının özünəməxsus poetikası, estetik xüsusiyyətləri var" (5, 9-10).

H.Cavid dramaturgiyasının əsas qayəsi min illərlə söz adamlarını, düşünən başları məşğul edən İnsan konsepsiyasıdır. Möhtəşəm, mürəkkəb, bununla belə daxili, bədii-fəlsəfi struktur etibarilə vahid İnsan konsepsiyası onun bir

silsilə təşkil edən bütün əsərlərində yüksək poeziya dili ilə öz bədii-fəlsəfi tədqiqini tapmışdır. Azərbaycan söz sənətində insanın tədqiqi Nizamidən başlayıb Nəsimi ilə davam edərək Füzulidə öz kamil eşq səviyyəsinə yüksəlmişdir. Cavid isə bunu müasir aspektdən görməyə çalışmışdır. Çox hörmətli tədqiqatçı alimimiz professor Nərgiz Paşayevanın təbirincə desək, "insan bütün dövrlərdə söz sənətinin (daha geniş mənada incəsənətin) başlıca mövzusu və qəhrəmanıdır, sənətkarın öz əsərlərində ifadə etdiyi ideyanın bədii təcəssümüdür" (8, 3). "İnsan həyatının, insan gerçəkliyinin çox mühüm, qlobal, dramatik və böhranlı bir məqamını Cavid öz poetik dramaturgiyasında müstəqil bir dərinliklə əks etdirmişdir və Cavid sənətinin, poeziyasının bu xüsusiyyəti baxımından onun, demək olar ki, bütün əsərlərini qeyd etmək olar" (4, 3). Ümumilikdə, Cavid yaradıcılığının ideya-bədii xüsusiyyətləri onun ali bir məqsədə - İnsanın paklaşaraq kamilləşməsinə xidmət etməsində özünü göstərir.

Ümumilikdə yuxarıda sadalanan ədiblərin yaradıcılığının ideya-məzmun və ədəbi-estetik əsasları milli ədəbi düşüncənin formalaşmasına xidmət edirdi. Məqalədə yaradıcılığı şərh olunan ədiblərin əsərləri ictimai həyata hakim olan dini-mistik fikirləri alt-üst etdi. Onun yerini realist maarifçi poetik həyat tutmağa başladı. Bu isə öz növbəsində təsvir olunan obyektlərin konkretləşməsinə, daxili aləmin əks olunmasına, real obrazların yaranmasına gətirib çıxardı.

### ƏDƏBİYYAT

1. Axundzadə M.F. Seçilmiş əsərləri. 3 cilddə. I c. Bakı: Şərq-Qərb, 2005, 296 s.
2. M.F.Axundzadə - 200. Biblioqrafiya. Bakı: AMK, 2012, 360 s.
3. M.F.Axundzadə – 200. Biblioqrafik göstərici. Bakı: Elm, 2012, 652 s.
4. Əzizova N.M. "H.Cavid dramaturgiyasında İnsan, İblis, Tanrı (“Şeyx Sənan”, “Iblis”, “Peyğəmbər”)". Bakı: Elm, 2007, 154 s.
5. Himalay Ənvəroğlu (Qasımov). "Azərbaycan dramaturgiyası: tarixilik və müasirlik". Bakı: Nurlan, 2008, 256 s.
6. Haqverdiyev Ə. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı: Lider, 2005, 504 s.
7. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə. I c. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1967, 620 s.
8. Paşayeva N. "Müair Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki" (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında). Fil.e.d. alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın avtoreferatı. Bakı, 2004, 61 s.
9. Qarayev Y. Müqəddimə. N.Vəzirov. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, 304 s.
10. Rzayev Y.“Azərbaycan romanı: Siyasət və milli düşüncə”. Bakı: Elm, 2010, 296 s.

## СПЕЦИФИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ (КОНЕЦ XIX – НАЧАЛО XX ВВ.)

**К.И.ГЕЙДАРОВА**

### РЕЗЮМЕ

В статье исследуются вопросы мастерских особенностей драматургов, своеобразные особенности деятельности каждого автора. В то же время описываются актуальные проблемы эпохи. Так же были исследованы особенности мастерства отдельных ав-

торов. А также затрагиваются вопросы специфических особенностей нашей драматургии.

**Ключевые слова:** Азербайджан, драматургия, проблема, мастерство

## THE TYPICAL FEATURES OF THE AZERBAIJANI DRAMATURGY (LATE IN XIX –EARLY IN XX CENTURIES)

**K.İ. HEYDAROVA**

**SUMMARY**

This article deals with the mastery features of dramatists and specific indications of each dramatist's activity has been researched. As well as the actual problems of the time have been touched. The features of different authors' works are investigated, too. Some works are analyzed, works of many authors are illustrated. The specific feactures of the national dramaturgy are discussed in the article.

**Key words:** Azerbaijan, drama, problem, mastery